# Yazıçı-publisist Salman Alıoğlunun 70 illiyi qeyd edilib




**Azərbaycan Jurnalistlər və Yazıçılar Birliklərinin üzvü Salman Alıoğlunun Mətbuat Şurasında 70 illik yubiley tədbiri keçirilib.**

Tədbirdə çıxış edən Mətbuat Şurasının sədri Rəşad Məcid uzun illər mətbuat orqanlarında çalışan Salman Alıoğlunun keçdiyi yolu xatırladıb, onun əmək fəaliyyətinin ayrı-ayrı vaxtlarda “Ağdam” rayon qəzeti, “Qarabağ”, “Ədalət” və “Respublika” qəzetləri ilə bağlı olduğunu bildirib. Təcrübəli jurnalistin peşəkarlıq keyfiyyətlərinin gənc qələm sahibləri üçün örnək olduğunu qeyd edib.

Əməkdar jurnalistlər Elşən Əliyev, Rəşid Faxralı, Əməkdar mədəniyyət işçisi Xanlar Məmmədov, araşdırmaçı-jurnalist Elxan Salahov və başqaları bu il “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilən tanınmış jurnalistin kitablarından, qələmə aldığı hekayələrin kompozisiya, dil və üslub xüsusiyyətlərindən danışıblar. Onun yaradıcılıq nümunələrində kənd həyatının özünəməxsus və şirin bir koloritlə təsvir edildiyi vurğulanıb.

*XQ*